

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 185 (21.846)

30 sentyabr 2017-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Sentyabrın 29-da Heydər Əliyev Mərkəzində Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) yaranmasının 25 illik yubileyi münasibətilə təntənəli mərasim keçirilib.

Azərbaycan dövlətinin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər.

Dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev mərasimdə nitq söyləyib.

Marius Vizer Beynəlxalq Cüdo Federasiyasının ən yüksək mükafatını – qızıl medalını Azərbaycan Prezidenti İlham Əliyevə təqdim edib.

* * *

Sentyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Milli Olimpiya Komitəsinin 25 illik yubiley tədbirində, Bakıda keçirilən Avropa Olimpiya Komitələri İcraiyyə Komitəsinin iclasında, MDB, Baltikyanı ölkələr və Gürcüstan Milli Olimpiya komitələrinin regional forumunda iştirak etmək üçün ölkəmizə səfərə gələn Avropa Olimpiya komitələrinin, beynəlxalq idman təşkilatlarının və xarici Milli Olimpiya komitələrinin rəhbərlərindən ibarət nümayəndə heyətini qəbul edib.

* * *

Sentyabrın 29-da Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) binasında dünya şöhrətli azərbaycanlı alim Lütfi Zadə ilə vida mərasimi keçirilib. Dövlətimizin başçısı vida mərasimində iştirak edib.




## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti 2017-ci ilin sentyabr ayında bir sıra qərarlar qəbul etmişdir.

Belə ki, Nazirlər Kabinetinin 2017-ci il 9 sentyabr tarixli 86 nömrəli qərarı ilə "Naxçıvan Muxtar Respublikasında dövlət qulluğuna qəbul üzrə müsahibədə iştirak etmək üçün müraciətə əlavə edilməli sənədlərin siyahısı və sənədlərin qəbulu Qaydaları" təsdiq edilmişdir. Qaydalara əsasən test imtahanından keçmiş namizəd imtahanın nəticələri elan edildiyi gündən 10 (on) iş günü müddətində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet saytında dövlət qulluğu üzrə müraciət formasını doldurur. Formaya daxil edilmiş məlumatların və sənədlərin düzgünlüyünün yoxlanılması mümkün olmadığı halda və ya Formaya daxil edilmiş məlumatları və sənədləri eyniləşdirmə məqsədilə test imtahanında müvəffəqiyyət qazanmış namizəd şəxsiyyəti təsdiq edən sənədin, ali təhsil haqqında sənədin, əmək kitabçasının (olduğu halda) və müvafiq dövlət qulluğu vəzifəsi üzrə malik olduğu sertifikatın surətini, kadrlar uçotunun şəxsi vərəqəsini 5 (beş) iş günü müddətində Komissiyaya təqdim etməlidir. Müsahibədə iştirakla bağlı müraciət etmək istəyən namizəd Forma vasitəsilə sayta daxil etdiyi məlumatlarda və sənədlərdə dəyişikliklər olduqda müvafiq düzəlişləri edir və müsahibə elanı verildiyi gündən 30 (otuz) gün müddətində həmin müsahibədə iştirak üçün Komissiyaya müraciət edir.

Nazirlər Kabinetinin 2017-ci il 9 sentyabr tarixli 87 nömrəli qərarı ilə "Lisenziya blanklarının və əlavələrinin hazırlanmasına sifarişin verilməsi, onların bölgüsünün həyata keçirilməsi, blanklardan istifadənin uçotunun və hesabatının aparılması Qaydası"nın və lisenziya, ümumi lisenziya, xüsusi lisenziya blanklarının və əlavələrinin formalarının təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 3 sentyabr tarixli 87 nömrəli qərarında dəyişiklik edilmişdir. Həmçinin Nazirlər Kabinetinin 2017-ci il 28 sentyabr tarixli 90 nömrəli qərarı ilə Babək rayonunun ərazisində yerləşən qış otlaq sahəsinin daha səmərəli istifadəsini təmin etmək məqsədilə kateqoriyası dəyişdirilmişdir.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar. nakhchivan.az)* tanış olmaq mümkündür.

## Yüksək həyat səviyyəsi maddi və mənəvi təminatın nəticəsidir

***Cəmiyyətin inkişafının bütün mərhələlərində insanların maddi və mənəvi nemətlərlə təmin olunması, həyat standartlarının yüksəldilməsi aparılan sosial siyasətin əsas məzmununu təşkil edib. Bu da mahiyyət etibarilə cəmiyyətdə insan amilinə verilən diqqəti özündə ehtiva edir.***

İnsanın həyatının keyfiyyəti yaşadığı cəmiyyətin iqtisadi imkanları, milli və mənəvi dəyərləri və gələcəyə baxışları üzərində formalaşan sosial-mədəni inkişafından çox asılıdır. Məhz bu amil dövlətimiz tərəfindən cəmiyyətin bütün üzvlərinin minimum həyat şəraitinin təmin olunması və insanların daim yüksələn yaşayış standartlarına çata bilməsi üçün yaradılmış quruculuq mühitində formalaşan münasibətlərin əsasında dayanır. Hazırda muxtar respublikamızda aparılan uğurlu sosial siyasət də bu baxımdan insanları dövlətin ətrafında daha sıx birləşməyə, daha yaradıcı və fədakar əməyə ruhlanmağa, tarixini, milli sərvətlərini qorumağa və öz torpağına, yurdyuvasına sahib çıxmağa sövq edir. Bütün bunlara görə, bu gün yurdumuzun hər bir vətəndaşı, ona bu gözəl həyatda yaxşı yaşamaq imkanı yaradanlara minnətdardır.

Şübhəsiz, insan tələbatları sonsuzdur və qloballaşmanın və mədəni inkişaf imperativləri ilə müstəqil ölkəmizin vətəndaşlarının da bu tələbatları daim artmaqdadır. Ancaq bu da var ki, belə tələbatların ödənilməsi iqtisadi imkanlarla yanaşı, eyni zamanda istehsal münasibətlərinin mövcud səviyyəsindən və dövlətin bu sahədə həyata keçirdiyi zəruri tənzimləmə tədbirlərindən də asılıdır. Əks halda, dəqiq bir məqsəd müəyyən olunmadan, plansız-proqramsız görülən işlərin çox cüzi hissəsi, son nəticədə, uğurlu ola bilər. Ona görə də əhalinin daim yüksələn həyat səviyyəsi tempinin qorunub saxlanılması uzunmüddətli inkişafı təmin edən əsas amil kimi cəmiyyəti də sosial sabitliyə qovuşdurur.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi inkişaf yolu bu gün ölkəmizin sahib olduğu bütün sərvətlərin, əhali rifahının yüksəldilməsinə imkan yaradıb. Artıq bütün göstəricilərinə görə Cənubi Qafqazın ən güclü dövləti olan Azərbaycan Respublikasının regionları son iki onillik ərzində tanınmayacaq dərəcədə dəyişib. Blokada vəziyyətinin mövcud çətinliklərinə baxmayaraq, belə keyfiyyət dəyişikliklərini yaxından hiss edən Naxçıvan Muxtar Respublikasının müstəqillik illərində keçdiyi sosial-iqtisadi inkişaf yolu isə əhalinin yüksələn həyat standartlarında da özünü qabarıq şəkildə göstərməkdədir. İndi muxtar respublikanın paytaxtında və digər iri şəhərlərində olduğu kimi, ucqar dağ kəndlərində də istifadəyə verilən sosial obyektlər, infrastruktur və xidmət obyektləri, hamar yollar, sürətli rabitə və komfortlu turizm xidmətləri günümüzün reallıqlarıdır. Şəhərlə kənd arasında fərqin aradan qaldırılması, insanların həyat səviyyəsinə təsir edən mühüm amillərin daim nəzarətdə saxlanılması muxtar respublika sakinlərinin həyat tərzindəki təzadların artıq çoxdan yox olmasına səbəb olub.

Regionda yerli istehsalın stimullaşdırılması, istehsalçıların maraqlarının qorunması, kiçik sahibkarlığın inkişafına və əhali məşğulluğuna təsir edən mühüm dövlət dəstəkli tədbirlər Naxçıvanın ötən dövrlərdə iqtisadi və sosial həyatda qazandığı uğurların əsasında dayanır. Ölkəmizdə regionların sosial-iqtisadi inkişafı üzrə qəbul olunmuş dövlət proqramlarının müvəffəqiyyətlə icra olunması nəticəsində yeni iş yerlərinin yaradılması, adambaşına düşən orta aylıq əməkhaqqının artırılması və yeni iqtisadi şəraitdə çoxşaxəli iqtisadiyyatın formalaşdırılması və inkişafı istiqamətində aparılan tədbirlər öz konkret bəhrəsini verməkdədir.

Naxçıvanlılar işgüzar və qədirbilən insanlardır. Tarixi ədalətsizlik nəticəsində ölkəmizin əsas hissəsindən ayrı düşmüş muxtar respublika dövlət müstəqilliyimizin əldə olunduğu ilk illərdə daha çətin sınaqlar qarşısında qaldı. Ancaq taleyin Naxçıvana və Azərbaycana böyük xilaskar kimi yenidən bəxş etdiyi ulu öndər Heydər Əliyevin ətrafında sıx birləşən qədirbilən naxçıvanlılar o dövrdə, eləcə də ondan sonrakı mərhələdə mümkün olması çox çətin olanı reallığa çevirdilər. Muxtar respublikanın möhkəm müdafiəsinin təşkilindən tutmuş regionun enerji və ərzaq təhlükəsizliyi təminatı, kommunikasiya əlaqələrinin yenidən qurulması, zəruri infrastrukturun yenilənməsi kimi sahələrdə nəhəng işlərə imza atdılar. Görülən işlərin, həyata keçirilən irimiqyaslı layihələrin nəticəsi o oldu ki, bir zamanlar axşamdan yarıqaranlıq, soyuq mənzilində oturub səhər erkəndən duracağı çörək növbəsinin sıxıntısını çəkən Naxçıvan sakini indi ancaq lüks tələbatlarının ödənilməsi qayğısını çəkir. Naxçıvanlıların evini çıraqban edən Günəş Elektrik Stansiyası, Naxçıvandan bütün ucqar yaşayış məntəqələrinə aparan şüşə kimi hamar yollar, evimizə çəkilmiş Şahbuzun buz bulaqları kimi saf, təmiz su, muxtar respublikanın yüz faiz ərazisində insanların dünyaya çıxışını təmin edən 4G mobil rabitə, keyfiyyət standartlarına ciddi şəkildə diqqət yetirildiyi ticarət, iaşə və mədəni xidmətlər bu gün hər cür sosial təminatlı Naxçıvan sakininin həyat standartına çevrilib.

Naxçıvanda uşaqların və gənclərin daha yaxşı təhsil alması, onların layiqli vətəndaş kimi yetişməsi üçün görülən ardıcıl işlər nümunə gücündədir. Uşaq bağçasından tutmuş orta və ali təhsil müəssisələri üçün yaradılmış ideal şərait burada işləyənlərin səmərəli fəaliyyəti ilə yanaşı, valideynlərin bu sahədəki qayğılarını da yox edib. İndi evimizdən də gözəl məktəb və universitet binalarında təhsil alan gənclərimiz qayğısız günlərini yaşamaqla onlar üçün yaradılmış bu gözəl şəraitdə dövlətimizə sədaqət ruhunda yetişdirilirlər. Muxtar respublikada əhalinin təmin olunduğu yüksək səviyyəli tibbi xidmətlər və istifadə olunan ən yeni texnoloji avadanlıqlar maddi vəziyyətindən asılı olmayaraq, hər bir vətəndaşın başqa yerə getmədən öz sağlamlığını qoruması üçün indiyədək heç vaxt olmayan gözəl şərait yaradıb. Turizm, nəqliyyat, sığorta və bu kimi çox sayda müasir insan həyatının müxtəlif tələbatlarının ödənilməsi dövlətin uğurlu sosial siyasətinin nəticəsində mümkün olub.

Məşğulluq, işlə təminolunma hər bir insanın iqtisadi problemlərinin həlli və sosial vəziyyətinin yaxşılaşdırılması üçün vacib amillərdir. Bu mənada, Naxçıvanda əhalinin aktiv sosial müdafiəsinin, məşğulluq probleminin davamlı olaraq gündəmdə olması dövlətimizin diqqət mərkəzindədir. Peşə və ixtisasından asılı olmayaraq, hər kəs üçün faydalı olan əməyin təşkili, insanların bilik, bacarıq və əmək vərdişlərindən maksimum səmərə ilə istifadə olunması sosial rifahımıza da təsir edir. Torpağımızın bəhrəsindən, onun sərvətlərindən istifadə edən hər bir naxçıvanlının yaxşı yaşaması, sahib olduğu işin maddiləşərək məhsul və xidmətlər şəklində insanların ixtiyarına verilməsi onun özünün və digər insanların firavan yaşayışı üçün daim diqqətdə saxlanılır.

Öz həyat şəraitini müasirləşdirib, iqtisadi və sosial həyatın bütün sahələrində fəallıq göstərən naxçıvanlılar üçün çətin günlər artıq tarixdə qalıb. Bu möcüzənin əsasında isə min bir əziyyətdən çəkinməyib yurdumuzun abadlığı üçün qətiyyətli qərarlar qəbul edilməsi, zəhmət və uzaqgörən siyasət dayanır. Bu, gücünü xalqdan alan, yalnız xalqa xidmətə istiqamətlənmiş ulu öndər Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsinin bəhrələridir.

✍ **Əli CABBAROV**

## Rabitə İdarəsi üçün inşa edilən binada işlər davam etdirilir



Ordubad rayonunun quruculuq xəritəsi hərtərəfli dövlət qayğısı hesabına ildən-ilə genişlənir. Hazırda Ordubad Rayon Rabitə İdarəsi üçün yeni binanın tikilməsinə başlanılıb. İnşaat işləri Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad Rayon İdarəsi tərəfindən həyata keçirilir.

İlkin olaraq binanın tikiləcəyi ərazidə torpaq işləri başa çatdırılıb, fundament qazılıb, qəlib-beton işləri üçün hazırlıqlar aparılıb. Sonrakı mərhələdə qəlib-beton işlərinə başlanılıb. Hazırda bu işlər sürətlə davam etdirilir. Yeni bina zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olacaq. Zirzəmi hissədə server otağı, qazanxana, mətbəx, yeməkxana, elektrik və təsərrüfat otaqları, qarderob yerləşəcək. Birinci mərtəbədə mühəndis, bağlama və çeşidləmə otaqları, Naxtel müştəri xidmətləri bölməsi və xidməti zal fəaliyyət göstərəcək. İkinci mərtəbədə arxiv və xidməti otaqlar, üçüncü mərtəbədə isə ATS, 50 yerlik iclas zalı və digər iş otaqlarının salınması nəzərdə tutulub.

Qeyd edək ki, son illərdə muxtar respublikada rabitə və yeni texnologiyaların tətbiqi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Bu sahədə maddi-texniki bazanın gücləndirilməsi müxtəlif yaşayış bölgələrində də poçt və rabitə xidmətlərinin lazımi şəkildə təşkilinə şərait yaradıb. Ordubadda rayon Rabitə İdarəsi üçün də yeni binanın tikilməsi bölgə əhalisinin poçt və rabitə xidmətlərindən hərtərəfli şəkildə yararlanmasına öz töhfəsini verəcəkdir.

✍ **Səbuhi HÜSEYNOV**



## Rayonların sosial-iqtisadi həyatı

# CULFA: illərin uğur estafeti davam edir



***Son illərdə muxtar respublikada qazanılan uğurlar barədə danışarkən öncə bunun təməlində hansı amillərin dayandığını düşünürsən. Cavab birmənalıdır: insan amilinə göstərilən qayğı, onun yaxşı yaşamasını, işləməsini təmin edən şəraitin yaradılması. Bu amillərin tərkib hissəsi isə genişdir: tikinti-quruculuq tədbirlərinin həyatımızın hər sahəsini əhatə etməsi, sənayenin, aqrar sektorun inkişafı üçün məqsədyönlü tədbirlərin həyata keçirilməsi, müxtəlif xidmət sahələrində müasir iş şəraitinin təmin edilməsi və sair. Bütün bunları bu gün paytaxt şəhərimiz Naxçıvandan tutmuş muxtar respublikanın ən ucqar dağ və sərhəd bölgələrində görə bilərik və görülən işlər, haqlı olaraq, region sakinləri tərəfindən yüksək dəyərləndirilir. Bu baxımdan 2017-ci ilin ötən dövrünün uğurlu nəticələri də təbiidir. Ona görə də yurd, torpaq təəssübünü hər şeydən üstün tutan hər bir naxçıvanlı bu müddət ərzində qazanılan uğurlara sevinir. Naxçıvanın Şərqə açılan qapısı hesab edilən Culfa da bu gün tamam özgə bir büsatdadır.***

### *Dünən belə deyildi*

Qədim tarixi olan bu yurd yerinin yaxın keçmişinə qayıdaraq o dövrü xatırlayanlar bugünkü inkişaf və tərəqqi müstəvisində keçmişlə müqayisə belə, apara bilməzlər. Çünki sovet dönəminin ən güclü vaxtlarında burada barmaqla sayılası həcmdə iş görülməsini yaşlı nəslin nümayəndələri yaxşı xatırlayırlar. Baxmayaraq ki, Culfa o vaxt hərbçilər və dəmiryolçular şəhəri kimi tanınırdı. Buraya bir ucu Vladivostokdan, bir ucu Kamçatkadan, Sibirdən qonaqlar gəlirdi. Ovaxtkı Culfa Rayon Partiya Komitəsinin, Gömrük İdarəsinin və "İnturist" mehmanxanasının binaları dövrün yeni tikililəri olsa da, ənənəvi layihələrdən seçilmirdi. Digər tikililər də cansıxıcı görkəmilə uzaqdan seçilirdi.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə bu bölgənin də üzünə gün doğdu. Rayonda həyat canlanmağa başladı. Culfa şəhərində və kənd yaşayış məntəqələrində yeni tikililər həyata vəsiqə aldı. 1988-ci ilin sonlarından başlanan hadisələr bu rayonu da iflic vəziyyətə saldı. Ancaq hər qaranlıq gecənin bir işıqlı gündüzü olacağına inanan culfalılar çətinliklərə dözdülər. Ulu öndərimizin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra muxtar respublikanın digər bölgələri kimi, Culfa rayonu da yeni inkişaf dövrünə qədəm qoydu.

Son 22 il ərzində rayonun siması tamamilə dəyişib. Culfa şəhərində və bölgənin kəndlərində istifadəyə verilən yeni tikililəri saymaqla qurtarmaq olmaz. Həmin obyektlərin hamısı müasir arxitektura üslubunda və gələcək perspektivlər nəzərə alınmaqla inşa olunub. 2017-ci ilin ötən dövründə də bu tədbirlər davam etdirilib.

### *Quruculuq işləri rayona müasirlik gətirir*

Məlumat üçün bildirək ki, 2017-ci ilin yanvar-avqust aylarında bütün maliyyə mənbələrindən əsas kapitala 21 milyon 685,5 min manat investisiya yönəldilib. Bu dövrdə rayonda tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 20 milyon 305,4 min manat təşkil edib.

Bəhs edilən dövr Culfa üçün əlamətdar olub. Belə ki, yanvarın 11-də Culfa rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı, kanalizasiya sistemlərinin istifadəyə verilməsi mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

"Culfa rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində Əlincəçay yatağında 2088 metr müxtəlif diametrli borularla kaptaj və onu sel sularından qorumaq üçün uzunluğu 1500 metr olan selyönəldici bənd tikilib. Sutəmizləyici qurğu 2045-ci ilə qədər əhalini və sənaye sahəsini gün ərzində 24 saat ekoloji cəhətdən təmiz su ilə təchiz edəcək.



Su anbarlarından təmizlənmiş su öz axını ilə Culfa şəhərinin və Gülüstan kəndinin əhalisinə fasiləsiz olaraq verilir.

Culfa şəhərində diametri 500 millimetrdən 200 millimetrə qədər borularla 34,5 kilometr daxili kanalizasiya şəbəkəsi çəkilib.

Bununla da, Culfa şəhəri və Gülüstan kəndində 25 min 700 nəfər təmiz, dayanıqlı, ekoloji cəhətdən tam yararlı və Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su ilə davamlı olaraq təmin edilib.

Tikinti-quruculuq tədbirləri hazırda rayonun Dizə kəndində davam etdirilir. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Culfa Rayon İdarəsinin inşaatçıları tərəfindən Dizə kəndində tam orta məktəb, kənd və xidmət mərkəzləri üçün yeni binalar inşa olunur. Məktəb binası üçmərtəbəlidir. 216 şagird yerlik tam orta məktəb binasında hazırda son tamamlama işləri görülür.

İnşası başa çatdırılan kənd mərkəzinin binası isə ikimərtəbəlidir. Bu binada kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, kitabxana, klub, tibb və baytarlıq məntəqələri, Yeni Azərbaycan Partiyası Dizə kənd ərazi ilk təşkilatı, polis, poçt şöbələrinin fəaliyyəti üçün hərtərəfli şərait yaradılacaq.

Birmərtəbəli xidmət mərkəzi də istifadəyə hazır olan obyektlər sırasındadır. Bu mərkəz sakinlərin ərzaq və təsərrüfat mallarına olan tələbatlarının ödənilməsinə öz töhfəsini verəcək.

***Haşiyə:*** Bu gün muxtar respublika, sözün həqiqi mənasında, böyük tikinti meydançasıdır. Onu da qeyd edək ki, tikinti-quruculuq tədbirləri hər bir bölgəmizdə aparılır və bu hesaba diyarımızın siması tanınmaz dərəcədə dəyişmişdir. Belə gözəllik qarşısında, hətta xaricdən gələn qonaqlar da öz təəccüblərini gizlətmirlər. Sözümüz bunda deyil. Onu vurğulamaq istəyirik ki, quruculuq tədbirləri daha çox kənd yaşayış məntəqələrini əhatə edir. Elə götürək bu rayonu. Bir rayon mərkəzi və 22 kənddən ibarət olan Culfa rayonunun 20-dən artıq kənd yaşayış məntəqəsində öz sosial obyektləri inşa olunub.

### *Torpaq kənd adamlarının ruzi-bərəkət mənbəyinə çevrilib*

Dağlıq və dağətəyi zonada yerləşən bu bölgədə müxtəlif sahələrin inkişafına göstərilən hərtərəfli dövlət qayğısı culfalıların bir sıra uğurlara imza atmalarına şərait yaradıb. Bu cəhətdən iqtisadiyyatda öz aparıcı mövqeyini qoruyan kənd təsərrüfatı sektorunun inkişafı bəhs olunan dövrdə də diqqət mərkəzində saxlanılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"na uyğun olaraq rayonda ardıcıl və məqsədyönlü işlər görülür. Bu səbəbdəndir ki, bölgədə cari ilin ötən dövrü ərzində 35 milyon 361,8 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilib. Culfanın torpaq mülkiyyətçiləri taxılçılıqda xeyli təcrübə qazanıblar. Bu il 4831 hektar buğda əkini sahəsindən 12 min 821 ton, 1217 hektar arpa əkini sahəsindən 3052 ton arpa tədarük edilib. Torpaq mülkiyyətçiləri 2018-ci ilin məhsulu üçün 1 sentyabr 2017-ci il tarixə 715 hektar sahədə payız əkini üçün şum qaldırılmasına nail olublar.

İkinci çörək hesab edilən kartofun əkilib-becərilməsinə rayonda xüsusi diqqət yetirilir. Bu səbəbdəndir ki, culfalılar kartof üçün ayrılmış 275 hektar sahədən 2697 ton taxıl əldə ediblər. Rayonda dən qarğıdalı, günəbaxan əkininə də maraq artıb. Hər iki sahədən tədarük olunan məhsul da bunu sübut edir.

Culfalılar bəhs olunan dövrdə 131 hektar sahədə bostan məhsulları əkib-becəriblər. Bu günədək onlar həmin sahələrdən 1471 ton məhsul götürüblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" bu sahələrdə xeyli uğurlar qazanılmasını şərtləndirib. Belə ki, rayonda meyvə bağlarından 2578 ton meyvə, üzüm bağlarından 1709 ton üzüm, 339 hektar tərəvəz əkini sahəsinin 96,5 faizindən 4532 ton tərəvəz tədarük olunub.

Onu da diqqətə çatdıraq ki, üzüm və meyvə bağlarının sahələrini genişləndirmək bəhs olunan dövrdə diqqət mərkəzində saxlanılıb, xüsusilə də rayonun kənd yaşayış məntəqələrində yeni bağlar salınıb.

Aqrar sektorda özəl bölmənin xüsusi çəkisi var. Bu səbəbdən də özəl bölməyə qayğı davam etdirilib, sahibkarlar müxtəlif dövlət yardımlarından bəhrələnərək yeni istehsal sahələrinin yaradılmasına ciddi önəm veriblər. Bu isə gündəlik tələbat malları istehsalı ilə yanaşı, əhalinin məşğulluq probleminin həllinə də əhəmiyyətli təsir göstərib. 2017-ci ilin ikinci rübündə rayonda 39 yeni iş yeri açılıb ki, bunun da çoxu özəl sektorun payına düşür.

Bəhs olunan dövrdə rayonda 5 milyon 197,1 min manatlıq sənaye məhsulu istehsal edilib.

### *Xidmət sahələri fəaliyyətini gücləndirib*

Son illərdə olduğu kimi, 2017-ci ildə də əhaliyə göstərilən rabitə xidmətinin keyfiyyətinin daha da yüksəldilməsi üçün ardıcıl işlər aparılıb. Bu dövrdə rayon üzrə informasiya və rabitə xidmətlərinin dəyəri 2 milyon 509,6 min manat olub.

Rayon əhalisini fasiləsiz elektrik enerjisi ilə təmin etmək üçün Culfa şəhərində müasir yeni qapalıtipli 100 kva gücündə yarımstansiya quraşdırılıb, açıqtipli 250 kva gücündəki yarımstansiya ləğv edilərək yeni 250 kva gücündə yarımstansiya ilə, "Təbriz" küçəsindəki 250 kva gücündəki transformator yarımstansiyası abonentlərin elektrik enerjisinə olan tələbatını nəzərə alaraq 400 kva gücündə olan yarımstansiya ilə əvəz edilib. Rayonun Yaycı, Gülüstan, Camaldın, Ərəzin, Əbrəqunus, Qazançı, Xoşkeşin, Xanəgah, Əlincə, Gal və digər yaşayış məntəqələrində müxtəlif məqsədyönlü tədbirlər həyata keçirilib. Köhnə avadanlıqların yeniləri ilə əvəz olunması diqqətdə saxlanılıb.

Əhalinin təbii qaz və istiliklə təmin olunmasına diqqət artırılıb, rayon mərkəzində və kənd yaşayış məntəqələrindəki orta və aşağıtəzyiqli qaz xətlərində cari təmir işləri həyata keçirilib, texniki səbəbdən yararsız hala düşmüş qaz sayğacları yenisi ilə əvəzlənib, yeni tikilmiş fərdi yaşayış evlərinə qaz xətləri çəkilib.

2017-ci ildə əhalinin sosial müdafiəsi sahəsində də tədbirlər davam etdirilib. Bu sahədə aparılan islahatlar aztəminatlı və sosial müdafiəyə ehtiyacı olan vətəndaşların maddi rifah halının yaxşılaşdırılmasına yönəldilib.

### *Rayon sakinlərinin ürək sözləri*

Culfa şəhər sakini, təqaüdçü-müəllim Radiq Şahmərdanov:

– İnsan övladı daim qayğıya ehtiyac duyub. Qayğı olan yerdə hər bir çətinliyi aradan qaldırmaq, problemi həll etmək mümkündür. Culfanı müasir rayon mərkəzinə çevirən yeni tikililər bu qayğının ifadəsidir. Son illər daimi xarakter alan belə qayğı insanların qurub-yaratmaq əzminə öz təsirini göstərib. Müxtəlif idarə, müəssisə və təşkilatlar üçün yeni binalar inşa olunmaqla həmin ünvanlarda müasir iş şəraiti yaradılıb. Şəhərin su problemi həll olunub. Dünənki Culfadan əsər-əlamət qalmayıb.

Yaycı kənd sakini, el ağsaqqalı Cəfər Əliyev:

– Həyata keçirilən tədbirlər rayonun, demək olar ki, bütün kənd yaşayış məntəqələrini əhatə edib. Götürək elə yaşadığım Yaycı kəndini. Bir vaxtlar Yaycıda fəaliyyət göstərən təşkilatların hərəsi kəndin ayrı-ayrı yerlərində uyğunlaşdırılmış binalarda yerləşdirilmişdi. Kənd mərkəzi istifadəyə verildikdən sonra kənddəki təşkilatların bir obyektdə fəaliyyəti təmin olunub. Burada kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, mədəniyyət evi yerləşir. Bütün bunlar əhalinin sosial şəraitinin yaxşılaşdırılması üçün həyata keçirilən tədbirlərdir.

Culfa şəhər 2 nömrəli tam orta məktəbin müəllimi Nüsrət Yaqubov:

– 20 ildən bir qədər artıq zaman kəsiyində Culfada görülən işlərin həcminə baxanda adam gözlərinə inanmır. Bu müddətdə Culfa tamamilə müasirliyə qovuşub. Hara baxırsan, təmizlik, gül-çiçək. Küçələr yenilənib, inzibati və ictimai yaşayış binalarına yeni görkəm verilib. İnsanlara asudə vaxtlarını səmərəli keçirmək üçün parklar yaradılıb. Bütün bunlar muxtar respublikamızda son illərdə bərqərar edilmiş sabitlik hesabına mümkün olub. Rayonumuzun bu səviyyədə inkişafı hər bir culfalını ürəkdən sevindirir. Buna görə də dövlətimizə minnətdarlığımı bildirirəm.

* * *

Bu gün tarixi keçmişi ilə müasirliyi qovuşduran Culfa muxtar respublikanın 22 illik inkişaf mərhələsinin ön sıralarında gedən, ölkəmizin inkişaf etməkdə olan, günü-gündən gözəlləşən bölgələrindən biridir. Rayonda həyata keçirilən tikinti-quruculuq işləri buraya müasir görkəm verməklə yanaşı, əhalinin maddi rifah halının yüksəlməsinə də şərait yaradıb. Bütün bunlar muxtar respublikada mövcud inkişafın cəmiyyətin, onun hər bir üzvünün həyatında özünü aydın surətdə əks etdirməsinin göstəricisidir.

Culfalılar əmindirlər ki, 2017-ci ili uğurla başa vuracaqlar.

**Muxtar MƏMMƏDOV**

*1 oktyabr Prokurorluq işçilərinin peşə bayramı günüdür*

## Muxtar respublikanın prokurorluq orqanları hərtərəfli qayğı ilə əhatə olunub



***Ümummilli lider Heydər Əliyevin 1998-ci il 17 iyul tarixli Sərəncamına əsasən hər il oktyabr ayının 1-i "Prokurorluq işçilərinin peşə bayramı günü" kimi qeyd olunur.***

Azərbaycanda prokurorluq orqanlarının əsasının 1918-ci il oktyabr ayının 1-də qoyulmasına baxmayaraq, onun dövlət orqanı kimi formalaşması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 1993-cü ildə Azərbaycanda ali hakimiyyətə qayıdışından sonra respublikamızda qanunun aliliyi təmin olunmuş, vətəndaşların hüquq və azadlıqlarının yüksək səviyyədə müdafiəsi mühüm prinsip kimi elan edilmişdir. Bu tədbirlərin tərkib hissəsi kimi 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası məhkəmə hüquq islahatlarının həyata keçirilməsinə, habelə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və demokratikləşməsinə möhkəm zəmin yaratmışdır.

Bu dövrdən başlayaraq ulu öndər Heydər Əliyevin hüquqi dövlət quruculuğu konsepsiyasına uyğun olaraq, prokurorluq orqanlarında köklü islahatlara başlanılmışdır. ***"Respublikamızda prokurorluq müstəqil Azərbaycanın dövlət quruluşu sistemində öz layiqli yerini tutubdur və ölkəmizin müstəqilliyinə layiq xidmət edir"***, – deyən ulu öndərin rəhbərliyi ilə prokurorluq orqanlarında aparılan islahatların əsas məqsədi qanunçuluğun möhkəmləndirilməsindən, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət olmuşdur.

Qarşıda duran bu və digər məqsədlərin həyata keçirilməsi baxımından 1999-cu il 7 dekabr tarixində qəbul olunmuş "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanunu müstəsna əhəmiyyət daşıyır. Bu qanun prokurorluğun fəaliyyətinin forma və metodlarının demokratik dəyərlərə uyğunlaşdırılması baxımından hüquqi zəmin formalaşdırmışdır. "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında" Azərbaycan Respublikası Qanununun, "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin və digər normativ-hüquqi aktların təsdiq edilməsi isə prokurorluq orqanlarının fəaliyyətində hüquqi tənzimlənmə prosesini yeni mərhələyə yüksəltmişdir.

Ölkəmizdə bu gün həyata keçirilən ardıcıl məhkəmə-hüquq islahatları hüquq sisteminin demokratik standartlara cavab verən səviyyədə formalaşmasına, insan hüquq və azadlıqlarının daha mötəbər formada qorunmasına, o cümlədən prokurorluq orqanlarının tam yeniləşərək müasir məzmunlu sivil bir orqana çevrilməsinə zəmin yaratmışdır. Ulu öndərimizin siyasi kursunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarının fəaliyyətinin daha da müasirləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir. Dövlət başçısı prokurorluq orqanlarının inkişafını həm də peşəkar prokurorluq əməkdaşlarının hazırlanmasından asılı olduğunu bildirərək demişdir: ***"Hazırda prokurorluq orqanlarının qarşısında mühüm vəzifələr durur. Əsas məqsədimiz prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılmasıdır".***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 27 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi nəticəsində hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təşkili, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən istifadə edilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması sahəsində ciddi uğurlar əldə edilmişdir. Dövlət proqramının icrası üzrə prokurorluğun fəaliyyətinin bütün sahələrini əhatə edən çoxsaylı və əhəmiyyətli tədbirlər həyata keçirilməklə əsaslı təkmilləşməyə və müasirləşməyə nail olunmuşdur.

Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları da həmişə öz üzərində yüksək dövlət qayğısını hiss etmiş, ötən dövrdə muxtar respublika prokurorluğunun, eləcə də rayon, şəhər prokurorluqlarının normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmış, 2006-cı ildə Şahbuz və Culfa rayon prokurorluqları üçün müasir standartlara cavab verən yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir. Muxtar respublikanın sosial-iqtisadi və demokratik inkişafına uyğun olaraq hüquq institutlarının təkmilləşdirilməsinə, insan hüquqlarının müdafiəsi mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsinə xüsusi diqqət yetirilir. Azərbaycan Respublikası Prezidentinin "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada hüquq-mühafizə orqanlarının fəaliyyəti üçün yeni mərhələnin başlanğıcını qoymuş, Ordubad, Kəngərli və Sədərək rayon prokurorluqları üçün yeni inzibati binalar tikilmiş, Şərur Rayon Prokurorluğunun inzibati binasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Prokurorluğu mərkəzi aparatının inzibati binası əsaslı yenidənqurmadan sonra müasir texniki vasitə və kriminalistik avadanlıqlarla təmin edilərək istifadəyə verilmişdir. Prokurorluq orqanlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində Naxçıvan şəhər və Babək rayon prokurorluqları üçün də yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tövsiyə və tapşırıqlarına uyğun olaraq, cinayət hadisələrinin qarşısının alınması üçün profilaktik tədbirlərin həyata keçirilməsinin nəticəsidir ki, muxtar respublika cinayətkarlığın səviyyəsi baxımından ən stabil regiona çevrilmiş, cinayət hadisələrinin sayı dəfələrlə azalmışdır. Ali Məclisin Sədri cənab Vasif Talıbov demişdir: ***"Davamlı iqtisadi inkişaf, yeni iş yerlərinin açılması, gənclərin səmərəli məşğulluğunun təmin edilməsi muxtar respublikada cinayətkarlığın aşağı səviyyədə olmasını təmin etmişdir. Hüquq mühafizə orqanları yaradılan şəraitdən istifadə edərək maarifləndirmə-profilaktika tədbirlərini düzgün təşkil etməli, nizam-intizamı daim möhkəmləndirməli, ictimai-asayişin qorunması üçün səylə çalışmalıdırlar".***

Bu gün muxtar respublikanın prokurorluq orqanları profilaktik tədbirlərin təsirliliyinin artırılmasını diqqət mərkəzində saxlayırlar. Çünki demokratik dövlət quruculuğunda insanların hərtərəfli hüquqi düşüncəyə və hüquq mədəniyyətinə malik olmaları əsas şərtlərdəndir. Hüquq maarifinin yüksək səviyyədə olmasını muxtar respublika prokurorluğunun əməkdaşları özləri üçün əsas vəzifə hesab edərək bu istiqamətdə işlərini günün tələbləri səviyyəsində qurmağa çalışırlar.

Prokurorluq orqanlarına işə qəbulun müsabiqə qaydasında keçirilməsi prokurorluğun kadr tərkibinin savadlı hüquqşünaslar hesabına komplektləşdirilməsi üçün ciddi zəmin yaratmışdır. Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqələrin keçirilməsi qaydalarına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Prokurorluğuna Naxçıvan Muxtar Respublikası ərazisində yaşayış yeri üzrə qeydiyyata alınmış şəxsləri prokurorluq orqanlarına işə qəbul etmək səlahiyyəti verilmişdir. Bu səlahiyyətdən istifadə edilərək Naxçıvan Muxtar Respublikası Prokurorluğunda aşkarlıq və şəffaflıq şəraitində test imtahanları keçirilmiş və nəticədə, gənc hüquqşünaslar prokurorluq orqanlarına işə qəbul olunmuşlar.

*Dövlət qayğısını daim üzərlərində hiss edən prokurorluq orqanlarının əməkdaşları bundan sonra da qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı müdafiəsində səylə çalışacaqlar.*

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

***Sentyabrın 29-da Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının Tədbirlər Planına uyğun olaraq sağlamlıq imkanları məhdud şəxslərin və istedadlı qadınların rəsm və əl işlərinin sərgi-satışı təşkil olunmuşdur.***

## Sağlamlıq imkanları məhdud şəxslərin və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satış təşkil edilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov tədbirdə çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublikamızda bütün sahələrdə olduğu kimi, qadınların məşğulluğunun təmin olunması da diqqətdə saxlanılır, onların fəaliyyəti üçün hər cür şərait yaradılır. Qadınların, o cümlədən sağlamlıq imkanları məhdud şəxslərin müəyyən peşələrə yiyələnməsi, həmçinin istedad və bacarıqlarının inkişaf etdirilməsi üçün muxtar respublikada xalçaçı, dərzi, ağac üzərində oyma sənəti üzrə peşə kursları təşkil olunur. Bunun da nəticəsində muxtar respublikada xüsusi istedadları ilə seçilən, rəssamlıq, toxuculuq, el sənəti nümunələrini yaşatmağı özünə fəaliyyət sahəsi seçən və asudə vaxtını bu işlərə sərf edən qadınların sayı artır, yeni yaradıcılıq nümunələri yaradılır.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən sağlamlıq imkanları məhdud şəxslərin və istedadlı qadınların rəsm və əl işlərinin sərgi-satışının keçirilməsi artıq ənənə halını almışdır. İki ildir ki, muxtar respublikanın rayonlarında da əl işlərinin sərgi-satışı təşkil olunur", – deyən Rəhman Məmmədov qeyd edib ki, bu gün əl işlərindən ibarət növbəti sərgi-satışa, ümumilikdə, 290 qadının müxtəlif janrlarda çəkdikləri rəsm əsərləri və əl işlərindən ibarət 2 min 212 yaradıcılıq nümunəsi çıxarılıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış ediblər. Bildirilib ki, bu gün muxtar respublikanın bütün sakinləri kimi, sağlamlıq imkanları məhdud şəxslər də yüksək dövlət qayğısı ilə əhatə olunublar. Naxçıvan Muxtar Respublikasında həyata keçirilən dövlət qadın siyasəti isə qadınlarımızı cəmiyyətin fəal üzvünə çevirib, onların ictimai həyatda iştirakını təmin edib. Həyata keçirilən bu siyasətin tərkib hissəsi kimi istedadlı qadınların fəaliyyətlərinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir.

Sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar.

Qeyd edək ki, 10 gün davam edəcək sərgi-satışda muxtar respublikada yaşayan 290 istedadlı qadının 718 muncuqla, 34 kağızla, 628 toxuma, 29 tikmə, 279 dekorativ, 7 taxta üzərində və 29 üzərlik ilə iş, 37 yağlı boya, 52 tikmə, 30 toxuma, 37 dekorativ, 32 muncuqla işlənmiş tablo, 39 gips üzərində oyma, 28 xalça, 18 milli geyim olmaqla, ümumilikdə, 2006 rəsm və əl işi, sağlamlıq imkanları məhdud şəxslərin isə 206 işi nümayiş olunur.

**✍ Gülcamal TAHİROVA**

## Məktəbəhazırlıq qruplarının müəllimləri üçün seminar keçirilib



Məktəbəqədər təhsil ailənin və cəmiyyətin maraqlarına uyğun olaraq uşaqların erkən yaş dövründən intellektual, fiziki və zehni inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətinin formalaşmasını təmin edir. Belə tədris müəssisələri təhsil sisteminin ilk pilləsi olmaqla uşaqların tərbiyəsi və təlimi vəzifəsini yerinə yetirir. Bu məqsədlə muxtar respublikamızda məqsədyönlü tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən məktəbəhazırlıq qrupları müəllimlərinin ilk dəfə keçirilən seminarı da belə tədbirlərdəndir.

Naxçıvan Dövlət Texniki Kollecində təşkil edilən tədbirdə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin şöbə müdiri Rüstəm Həsənov "Muxtar respublika ümumtəhsil məktəblərində məktəbəhazırlıq qruplarının təşkili və əhəmiyyəti", Naxçıvan Şəhər Təhsil Şöbəsinin baş məsləhətçisi Gülxanım Orucova "Məktəbəhazırlıq qruplarında təlimin təşkili yolları", Naxçıvan şəhər 17 nömrəli tam orta məktəbin məktəbəhazırlıq qrupunun rəhbəri Səkinə Qənbərova "Məktəbəhazırlıq qruplarında uşaqlarla aparılan işin xüsusiyyətləri" mövzularında danışıblar.

Videoslaydların nümayiş olunduğu seminarda bildirilib ki, məktəbəhazırlıq qruplarının təşkil edilməsində məqsəd bu yaşda uşaqların məktəb təliminə hazırlığı ilə əlaqədar onların psixoloji dayanıqlığını artırmaq, beşyaşlıları əhatə olunduqları aləmə və təhsil mühitinə uyğunlaşdırmaq, ünsiyyət və birgə fəaliyyət bacarıqlarına yiyələnməsini təmin etməkdən ibarətdir.

Seminarda qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikasında uşaqların məktəbəhazırlığının təşkili məsələləri haqqında" Qərarından əvvəl uşaqların xeyli hissəsi məktəbəqədər təhsil mərhələsini, eləcə də məktəbəhazırlıq dövrünü keçmədən birbaşa məktəbə qəbul edilirdilər. Ancaq adıçəkilən qərardan sonra ötən ilin oktyabr ayından başlayaraq muxtar respublikanın ümumtəhsil məktəblərində məktəbəhazırlıq qrupları fəaliyyətə başlayıb. Bununla da, ibtidai təhsil məktəbəqədər təhsil və məktəbəhazırlıq təliminin davamı kimi vahid sistemdə birləşdirilib, uşağın psixoloji və mənəvi cəhətdən məktəb təliminə hazırlığının əsası qoyulub.

**✍ Nail ƏSGƏROV**

### 1 oktyabr Beynəlxalq Ahıllar Günüdür

## Muxtar respublikada ahıl vətəndaşlara davamlı dövlət qayğısı göstərilir

*Birləşmiş Millətlər Təşkilatı Baş Məclisi 1992-ci ildə ahılların müdafiəsi ilə bağlı qətnamə qəbul edib. Bu qətnamənin prinsiplərinə uyğun olaraq hər il oktyabrın 1-i Beynəlxalq Ahıllar Günü kimi qeyd olunur.*

Xalqımızın ümummilli lideri Heydər Əliyev ahıl insanlara, onların problemlərinə hər zaman böyük həssaslıqla yanaşmış, ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə bir sıra normativ-hüquqi sənədlər qəbul edilmişdir. Bu gün ölkəmizdə ahıl insanlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunub və bu qayğı ildən-ilə artır. Ahıl vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət mərkəzindədir. Onlara müxtəlif növ xidmətlərin göstərilməsi, maddi-məişət şəraitinin yaxşılaşdırılması, cəmiyyətə inteqrasiyası sahəsində ardıcıl tədbirlər həyata keçirilir. Pensiya və müavinətlərin məbləğinin mütəmadi olaraq artırılması ahıllara göstərilən davamlı dövlət qayğısının ifadəsidir.

Muxtar respublikada sosial-iqtisadi inkişafın təmin edilməsi ahıl vətəndaşlara göstərilən xidmətlərin həcminin ilbəil artmasına, yaşayış səviyyəsinin yüksəlməsinə hərtərəfli şərait yaradıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 30 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı" onların sosial müdafiəsi ilə bağlı həyata keçirilən tədbirlərin davamlılığını təmin edib.

1941-1945-ci illər müharibəsi veteranlarına xüsusi diqqət və qayğı göstərilir. Müharibə iştirakçıları minik maşını ilə təmin edilir, onların yubileyləri qeyd olunur, sosial müdafiələrini gücləndirmək məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. Bu günədək 1941-1945-ci illər müharibəsi iştirakçısı olan 122 ahıl minik maşını ilə, 2 ahıl evlə təmin olunub. Hazırda 37 müharibə əlili və iştirakçısına hər ay Prezident təqaüdü ödənilir, tənha yaşayan və hərəkət qabiliyyəti məhdud olan 234 ahıl vətəndaşa evlərində, 13 ahıla isə Ahıllar Evində sosial xidmət göstərilir.

Ahıllar Evi sakinlərinin rahat yaşaması üçün hər cür məişət şəraiti yaradılıb. Sakinlər mütəmadi olaraq tibbi müayinədən keçirilir, müalicələrinə köməklik göstərilir, əlamətdar günlərdə sakinlərlə görüşlər təşkil olunur, onlara sovqatlar təqdim edilir.

Ahıl insanların sağlamlıqlarının qorunmasına, tibbi reabilitasiyasına xüsusi önəm verilir. Belə ki, onların protez-ortopedik və müxtəlif reabilitasiya vasitələri ilə təmin olunmaları üçün səyyar xidmətlər göstərilir, respublikanın sanatoriya və pansionatlarına göndərişlər verilir. Ahıllar arasında yaradıcılıq müsabiqələri, əl işlərindən ibarət sərgilər də təşkil olunur. Ahılların əl işlərinin satışının təşkil edilməsi onların məşğulluğunu təmin etməklə maddi təminatlarının yaxşılaşmasına xidmət edir.

Muxtar respublikada ahılların yubiley yaşları, uzunömürlü ailələrin qızıl və brilyant toyları qeyd olunur. Sosial xidmət göstərilən tənha ahılların muxtar respublikanın tarixi və görməli yerlərinə gəzintilərinin, həftənin şənbə günləri onların yaşayış yerlərində iməciliklərin keçirilməsi ahıllara göstərilən dövlət qayğısının təzahürüdür. Bu tədbirlərin davamı olaraq Beynəlxalq Ahıllar Günü münasibətilə muxtar respublikada ahılların iştirakı ilə silsilə tədbirlər həyata keçirilir. Belə ki, sosial xidmət göstərilən tənha ahıllardan bir qisminin "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinə ziyarəti, muxtar respublikanın ən uzunömürlü sakini ilə, həmçinin Ahıllar Evində, Naxçıvan şəhərində və rayonlarda sosial xidmət göstərilən tənha ahıllarla görüş təşkil edilib, ümumilikdə, 234 şəxsə bayram sovqatı təqdim olunubdur.

Yaşlı nəslə qayğı həm də milli mənəviyyatımızın tərkib hissəsidir. Buna görə də ölkəmizdə ahıllara həmişə xüsusi diqqət göstərilir, onların sosial müdafiəsi gücləndirilir. Ahıl vətəndaşların cəmiyyətə inteqrasiyası istiqamətində həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

## "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yüksəkkeyfiyyətli çap məhsulları hazırlanır

***Məlumat əldə etmək, oxuyub savad sahibi olmaq hər bir insanın əsas intellektual tələbatlarından biridir. Bu mənada, bəşəriyyətin yaratdığı hər cür elmi, mədəni və bədii potensialı gələcək nəsillərə çatdıran kitablar ən qiymətli xəzinədir. Kitab yazıb ərsəyə gətirmək qədər onun çap edilib oxuculara çatdırılması da informasiya erasının mühüm yeniliklərindən biridir.***



Şübhəsiz, hələ XV əsrin ortalarında almaniyalı İohan Quttenberq kitab çapını kəşf etdiyində yüz illər sonra insanların kitablar vasitəsilə nə qədər məlumatlı ola biləcəyini, bəlkə də, düşünə bilməzdi. Elə indi də biz beş yüz il sonra yer üzündə nələr olacağını deyə bilməsək də, gələcəkdəki bütün texnoloji yeniliklərə baxmayaraq, kitaba olan marağın heç zaman azalmayacağını əminliklə deyə bilərik. Çünki kitab cəmiyyətin ən dəyərli maddi və mənəvi sərvətlərindən biridir.

Yaddaşlarda dərin iz buraxan kitabları mütaliə həvəskarı olan oxucular çox sevir. Mütaliənin isə hər bir insanın cəmiyyətin mükəmməl bir fərdi kimi yetişməsində, intellektual səviyyəsinin dərinləşməsində mühüm rolu vardır. Müasir texnoloji yeniliklərlə nəfis şəkildə çap olunmuş kitablar da mütaliəsevənlər üçün, sözün əsl mənasında, ən dəyərli hədiyyədir. Əgər belə bir hədiyyəni Naxçıvan kimi qədim elmi, ədəbi və mədəni tarixi keçmişə malik torpaqda yaşayanlara təqdim etsək, bu, onların yaddaşında daimi olaraq qalacaq. Naxçıvanda fəaliyyət göstərən "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin çap məhsullarının da, bu mənada, yüksək elmi-mədəni və publisistik dəyəri vardır.

1997-ci ildə yaradılmış "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi 2001-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin tabeçiliyinə verilərək yüksək qayğı ilə əhatə olunub. Ümumiyyətlə isə muxtar respublikamızda çap məhsulları istehsalının tarixi ötən əsrin əvvəllərindən başlanır. Belə ki, 1921-ci ildə Naxçıvanda ilk çap sexi yaradılıb və bu müəssisə 1938-ci ilədək "Şərq qapısı" qəzeti redaksiyasının nəzdində olan mətbəə kimi fəaliyyət göstərib. Bundan sonra isə Naxçıvan mətbəəsi adı ilə müstəqil müəssisəyə çevrilib. Uzun illər ərzində müxtəlif yerlərdə uyğunlaşdırılmış binalarda köhnə avadanlıqlarla fəaliyyət göstərmiş olan müəssisənin işində əsaslı dönüş 2001-ci il martın 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən imzalanmış "Naxçıvan Muxtar Respublikasında dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətinin yaxşılaşdırılması tədbirləri haqqında" Sərəncamından sonra başlayıb. Bundan sonra muxtar respublikada fəaliyyət göstərən redaksiya və digər mətbuat qurumları kimi, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin də fəaliyyəti üçün əlverişli şərait yaradılıb və maddi-texniki bazası möhkəmləndirilib. Artıq bu nəşriyyat müəssisəsi dünyanın ən müasir nəşriyyat evlərində istifadə olunan müasir kompüter və çap avadanlığı ilə təmin olunub. Belə ki, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin 2010-cu ildə istifadəyə verilmiş yeni binada yerləşdirilməsi və burada yüksək poliqrafik göstəricilərə malik Almaniya istehsalı olan çap avadanlığının quraşdırılması, 2015-ci ildə isə ikinci belə bir avadanlığın alınıb bu müəssisədə quraşdırılması muxtar respublikada nəşr-poliqrafiya işinə göstərilən diqqətin bariz nümunəsidir. Artıq Naxçıvanda "Şərq qapısı" qəzeti və rayon qəzetlərinin, habelə kitabların, jurnalların rəngli formatda nəşr olunması həyata keçirilir. Bunlardan əlavə, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi tərəfindən müəssisə və təşkilatlar üçün dəftərxana kitabları, sadə və ciddi hesabat blankları, müxtəlif qəbzlər, təqvimlər, etiketlər, dəftərlərin hazırlanması həyata keçirilir. 35 nəfərin birlikdə çalışdığı mətbəədə təkcə cari ilin ötən dövründə 80-dən artıq kitab, "Naxçıvan" jurnalının 34-cü nömrəsi, yüzlərlə qəzet nömrəsi çap olunub. Müəssisəyə dövlət sifarişlərindən başqa, Naxçıvanda fəaliyyət göstərən elm və mədəniyyət müəssisələri, universitetlər və akademiya əməkdaşları tərəfindən müxtəlif çap sifarişləri də daxil olur, çap məhsulları yüksək standartlar və müasir dizayn əsasında qısa müddətdə ərsəyə gətirilir.

Son illərdə "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəşr olunmuş kitablar arasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin nəşrləri olan "Naxçıvan 1924-2014", "Naxçıvan: ilkin şəhər və Duzdağ (27-28 iyul 2012-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları)", "Behbud ağa Şahtaxtinski və Qars müqaviləsi", "Behbud ağa Şahtaxtinski: sənədlər və materiallar", 3 cilddə "Naxçıvan tarixi" və "Naxçıvan folkloru", akademik İsmayıl Hacıyevin "Heydər Əliyev siyasəti: tarixdə və günümüzdə", akademik İsa Həbibbəylinin "Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr", Fəxrəddin Səfərlinin "Heydər Əliyev irsi – əbədiyaşar təlim", "İftixar. Qurtuluş dastanı" (2 hissəli epik-tarixi dram), "Naxçıvan dünya mətbuatında", Elçin Əfəndiyevin "Baş" romanı, Qadir Qədirzadənin "Kitabi-Dədə Qorqud" və Naxçıvan: qarşılaşdırmalı etnoqrafik motivlər", Rudolf İvanovun "Kalbalı xan Naxçıvanski dövrü və irsi" və "Basqın", Çingiz Qacarın rus dilində nəşr olunmuş "Naxçıvan dünyanın ən qədim şəhərlərindən biri" və amerikalı jurnalist Peter Tasenin ingilis dilində nəşr olunmuş "Naxçıvan" kitabları və digər maraqlı nəşr nümunələri diqqətləri cəlb edir.

Naxçıvanda kitaba, kitab oxumağa meyil həmişə güclü olub. Tanınmış naxçıvanlı ziyalılar gənclərimizin çox oxuması, elmli-təhsilli olması üçün çağırışlar ediblər. Bu yaxınlarda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən imzalanmış "Oxunması zəruri olan kitablar haqqında" Sərəncam isə müasir dövr insanının mütaliə yolu ilə yetkinləşməsinə, gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşdırılmasına xidmət edən mühüm bir qərardır. Fərəhli haldır ki, adıçəkilən sərəncamda qeyd olunan kitabların arasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti", "İslamda müdrik kəlamlar", "Mister Hemferin xatirələri. (İngilis casusunun etirafları)" və ABŞ-ın 16-cı prezidenti Avraam Linkolnun oğlunun müəlliminə yazdığı məktub kitabları da bu müəssisənin çap məhsulları arasındadır.

Kitablar, qəzet-jurnallar ziyalılarımızın etibarlı yolyoldaşı, təhsilimizdə, elmi və mədəni fəaliyyətimizdə mühüm vasitədir. Muxtar respublikamızın artan iqtisadi, mədəni potensialına, əhalinin yüksələn həyat səviyyəsinə uyğun olaraq müasir çap məhsullarının da hasilə gətirilməsində "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin üzərinə mühüm vəzifələr qoyulub. Bu vəzifələrin uğurla yerinə yetirilməsi Naxçıvanın bugünkü inkişaf salnaməsinin gələcək nəsillərə çatdırılmasına əhəmiyyətli töhfələr verir.

**✍ Əli CABBAROV**

## Şagirdlər muzeyi ziyarət ediblər

Məktəblilərin tarixi abidələrlə daha yaxından tanış olması, tariximizin unudulmaması və gələcək nəsillərə çatdırılması məqsədilə Naxçıvan şəhər məktəblilərinin "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinə ekskursiyası təşkil olunub. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə 30 şagird iştirak edib. Muzeyin bələdçisi Nərmin Orucova idmançılara muzey haqqında geniş məlumat verib və onları muzeydə olan eksponatlarla tanış edib.

Sonda idmançıları maraqlandıran suallar muzeyin bələdçisi tərəfindən cavablandırılıb.

## Yüngül atletika üzrə rayon birinciliyi keçirilib



*Şahbuz Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi, Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının Gənclər Birliyi və Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının Şahbuz rayon bölməsinin təşkilatçılığı ilə ümumtəhsil məktəblərinin qız şagirdləri arasında yüngül atletika üzrə rayon birinciliyi keçirilib.*

Tədbirdə rayon Gənclər və İdman İdarəsinin əməkdaşı İdris Qəhrəmanov, Təhsil Şöbəsinin əməkdaşı Fikrət Cəfərov çıxış edib, iştirakçılara uğurlar arzulayıblar.

Birincilikdə 10 tam orta məktəbin qızlardan ibarət komandası mübarizə aparıb. Atletlər 100, 200, 400 və 800 metr məsafələrdə güclərini sınayıblar.

Yekuna əsasən komanda hesabında Biçənək məktəbliləri qalib adını qazanıblar. Şahbuz şəhər 1 nömrəli və Aşağı Qışlaq kənd tam orta məktəblərinin komandaları isə ikinci və üçüncü olublar. Şəxsi birincilikdə 100 metr məsafədə Şahbuzkənd tam orta məktəbinin şagirdi Gülçin Nağıyeva, 200 metr məsafədə Aşağı Qışlaq kənd tam orta məktəbinin şagirdi Nərmin Rüstəmli, 400 metr məsafədə Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Nurşən Musayeva, 800 metr məsafədə Biçənək kənd tam orta məktəbinin şagirdi Mədinə İbrahimova rəqiblərini qabaqlayıblar.

Qaliblərə yarışın təşkilatçılarının diplomları təqdim edilib.

**✍ Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Naxçıvan şəhəri, B.Kəngərli küçəsi 7 ünvanında yaşayan Məmmədova Almaz Əli qızının adına olan 3176 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 781